# Heydər Əliyev Fondu tərəfindən ərzaq yardımları göstərilmişdir



Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar elan olunmuş xüsusi karantin rejimi dövründə Heydər Əliyev Fondunun ölkədə uğurla həyata keçirdiyi sosial layihə davam edir.

Fond tərəfindən ehtiyacı olan aztəminatlı ailələrə, tənha şəxslərə və yaşlı insanlara ərzaq dəstəyi göstərilir, onların sağlamlığının və müalicəsinin qeydinə qalınır.

Layihə çərçivəsində Heydər Əliyev Fondunun sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar üçün Qəbələ rayonuna göndərdiyi 716 ədəd ərzaq bağlamaları mayın 2-də öz ünvanlarına çatdırılıb.

Sovqatları qəbul edən ailələr nəcib təşəbbüsə görə xeyriyyə aksiyasının təşkilatçılarına xoş arzularını ifadə ediblər.

**“Qəbələ”**

# Sosial dəstək tədbirləri həyata keçirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Biz birlikdə güclüyük!” çağırışına əsasən Fövqəladə Hallar Nazirliyi ölkəmizdə koronavirus




(COVİD 19) pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilmiş xüsusi karantin rejimində həyata keçirdiyi sosial dəstək tədbirləri respublikamızın rayonları üzrə davam etdirilir.

Bununla əlaqədar FHN-nin əməkdaşları tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin verdiyi siyahılar əsasında Qəbələ rayonunda yaşayan yaşı 65-dən yuxarı tənha şəxslərə və aztəminatlı ailələrə, o cümlədən şəhid ailələrinə ərzaq məhsullarından ibarət yardımlar çatdırılıb.

Üç yüz iki ailə üçün nəzərdə tutulan sosial yardım bağlamalarını çatdıran FHN-nin əməkdaşları sovqatları təqdim edərkən sakinlər arasında maarifləndirici söhbətlər apararaq, xüsusi karantin rejiminin qaydalarına riayət olunmasının əhəmiyyətini vurğulayıblar.

**“Qəbələ”**

# Polis əməkdaşları sakinlərə tibbi maskalar paylayıb

Ölkəmizdə tətbiq olunan xüsusi karantin rejiminin qaydaları yumşaldılsa




da koronavirus pandemiyasının yayılmasının qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir.

Əhalinin karantin qaydalarına əməl etməsi məqsədilə Qbələ Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən koronavirus pandemiyasının əhatə dairəsinin genişlənməsinin qarşısının alınması ilə bağlı mütəmadi olaraq rayonda qabaqlayıcı tədbirlər görülür, sakinlərə karantin rejiminin qaydaları izah edilir.

Polis şöbəsinin əməkdaşları sosial müavinətlərin və təqaüdlərin verilməsi ilə bağlı yerli poçt şöbələrinin və bankların önündə yarana biləcək sıxlığın qarşısının alınması məqsədi ilə həmin ərazilərə ciddi nəzarət edir, karantin rejiminin qaydalarına uyğun olaraq vətəndaşların 2 metr ara məsafəsini saxlanılmasını təmin edir və onların sağlamlıqlarının qorunması istiqamətində maarifləndirici məlumatlar verirlər.

Sakinlərə tibbi maska paylayan Qəbələ RPŞ-nin əməkdaşları bu həssas zamanda hər kəsə diqqətli olmağı, gigiyenik qaydalara riayət etməyi tövsiyə edirlər.

**“Qəbələ”**

# Tibb işçiləri aktiv iştirak edirlər

Koronavirus (COVİD-19) infeksiyası ilə mübarizə tədbirlərində Qəbələ RMX PHŞ-nin tibb işçiləri



də aktiv iştirak edirlər. Bu günə kimi 2065 nəfərdən artıq vətəndaşdan diaqnostik məqsəd ilə yaxma götürülərək Bakı şəhərində laborator müayinə olunmuşdur.

Birinci növbədə əhali ilə daha çox təmasda olan şəxslərin tibbi müayinə olunmasına üstünlük verilmişdir. Bu müddət ərzində Qəbələdə pozitiv nəticə çıxmış şəxslərin xüsusi tibb müəssisələrində müalicə və müşahidəsi təmin edilmiş, ölüm hadisəsi və ağırlaşma halları baş verməmişdir.

Bu istiqamətdə profilaktik tədbirlər davam etdirilir.

**“Qəbələ”**

# Unutmayın! Koronavirus pandemiyadır!

***Yeni tipli pnevmoniya, COVİD-19 koronovirus pandemiyası 2019 cu ilin dekabr ayının ortalarında, Çinin Uhan şəhərində aşkar olunmuşdur. Bu koronavirusun yoluxmadan sonra inkubasiya dövrü 2 gündən 10 günə qədər davam edir və xəstəlik əlamətləri başlamazdan əvvəl yoluxucu olur.***

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) yanvarın 30-da Fövqaladə Komitənin İclasında yeni koronavirusun yayılmasını beynəlxalq narahatlıq yaradan vəziyyət kimi qəbul edib. ÜST fevral ayının 11-də infeksiyanın adını COVİD-19 qoyub və mart ayının 11-də koronovirusun yayılması pandemiya elan olunub.

Rəsmi olaraq, SARS-CoV-2 adlandırılan Covid-19-a səbəb olan virus təzə olduğundan onun haqqında hər hansı etibarlı məlumat yoxdur. Virus soyuq və quru hava şəraitində daha geniş yayılır. Həmçinin bildirilir ki, yüksək hava tempraturu xəstəliyin qlobal miqyasda artmasına həlledici təsir göstərə bilməz.

Bu virus ətraf mühitin təsirinə davamlıdır. Belə ki, 4 dərəcə tempraturda 14 gündən sonra fəallığı azalır, 70 dərəcədə isə 5 dəqiqə ərzində fəalsızlaşır. Kağız üzərində üç saatdan artıq, paltar və hamar səthdə iki günədək, şüşə üzərində dörd günədək, plastik səthdə bir həftəyədək qalır. Həmçinin tibbi maskanın üz səthində 7 günədək qalmaq iqtidarında olduğu bildirilir, ona görə də maskaların hər gün dəyişdirilməsi tələb olunur.

Virus insandan insana hava damla yolu ilə ötürülür. Xəstəliyin heç bir simptomu olmadan insandan insana keçə bilməsi mümkündür. Bu səbəbdən yayılması arealı bilinmir və epidemiyanı idarə etmək çətinləşir. Xəstəlik yüksək hərarət, öskürək və 2-27 günlük bir inkubasiya dövründən sonra qəfil başlayan nəfəs darlığı ilə xarakterizə olunur. Bəzi xəstələrdə boğaz ağrısı və burun axıntısı əlamətləri də olur. Xəstəlik orta və ağır gedişatla da özünü göstərə bilər. Xəstəliyin ağırlaşmaları ağır sətəlcəm, septik şok, kəskin tənəffüs çətinliyi sindromu, çoxsaylı orqan çatışmazlığı və ölümlə nəticələnə bilir. Bu virus ölümcül olsa da, ona yoluxmuş əksəriyyətdə yalnız yumuşaq simptomlar müşahidə olunur və bu şəxslər xəstəlikdən tam sağalırlar. Ümumiyyətlə, yoluxanların 80 faizində simptomlar zəif olur. İndiyədək bu virusa yoluxanların 14 faizində simptomlar sərt və yalnız 5 faizində kritik olub. Beləliklə, xəstəlikdən ölüm faizinin çox və ya az olması ölkədə pandemiyaya qarşı aparılan tədbirlərdən, əhalinin tələblərə riayət etməsindən, səhiyyə infrasturukturunun vəziyyətindən və s.aslıdır.

Hal-hazırda COVİD-19 üçün effektiv dərman terapiyası və ya peyvəndi yoxdur, lakin onun əldə edilməsi üçün dünyada səylər davam etdirilir. İnfeksiyanın qarşısını almaq üçün əlləri tez-tez yumaq, öskürək -asqıraq kimi xəstəlik əlamətləri olan kəslə sıx əlaqənin qarşısını almaq tövsiyə edilir. İctimai yerlərdə insanlarla təmasdan qaçmaq lazımdır (mümkünsə ən az 2 metr məsafədə). Əsaslı səbəb olmadan xəstəxanalara, sağlamlıq müəssələrinə getməkdən çəkinməli, digər xəstələrlə əlaqə minumuma endirilməli, hər kəs maska taxmalıdır. Yaşlı və

**(Ardı 6-cı səhifədə).**